Əgər mən gündəlik fərz namazlarını qılıb, Ramazan orucunu tutsam, Allahın halalını halal, haramını haram saysam

Əbu Abdullah Cabir bin Abdullah əl-Ənsari (Allah onların hər ikisindən razı olsun) belə demişdir: Bir kişi Allah Rəsulundan (sallallahu aleyhi va səlləm) soruşaraq belə dedi: Əgər mən gündəlik fərz namazlarını qılıb, Ramazan orucunu tutsam, Allahın halalını halal, haramını haram saysam və bunlara başqa heç bir əməl əlavə etməsəm, Cənnətə daxil olarammı? Allah Rəsulu (sallallahu aleyhi va səlləm) ona: "Bəli" – deyərək cavab verdi.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu hədisdə bizə, beş vaxt fərz namazı qılıb, nafilə olaraq başqa namaz qılmayan, Ramazan orucunu tutub, nafilə olaraq başqa nafilə oruc tutmayan, halalların halal olduğunu etiqad edib, onları edən və haramların da haram olduğunu etiqad edib, onlardan çəkinən kimsənin Cənnətə girəcəyini bəyan etmişdir.

https://sunnah.global/hadeeth/az/show/66525